**Tarix və onun problemləri, №3 2009**

**NİSBƏT MEHDİYEVA**
*tarix elmləri doktoru, professor*

# ÖZBƏKİSTANDA MƏKTƏB VƏ MƏDRƏSƏLƏR, DÜNYƏVİ TƏHSİL (XIX – XX əsrin əvvəlləri)

Bəşər tarixində elə problemlər vardır ki, zaman keçdikcə onların əhəmiyyəti nəinki azalmır, əksinə daha da artır. Hər bir xalqın tarixini, milli xüsusiyyətlərini, maddi və mənəvi dəyərlərini özündə təcəssüm etdirən mədəniyyət bu qəbildəndir. Mədəniyyət məsələlərini tarixçilər, filosoflar, ədəbiyyatşünaslar, incəsənət xadimləri və başqaları tədqiq edirlər. Bu baxımdan «Özbəkistanda məktəb və mədrəsələr, dünyəvi təhsil ( XIX – XX əsrin əvvəlləri)» mövzusunun araşdırılması maraq doğurur.

XIX – XX əsrin əvvəllərində Özbəkistanda maarifin inkişafı sahəsində bir sıra nailiyyətlər əldə edilmişdi. Milli mədəniyyətin formalaşması, yaranması və inkişafında maarif böyük rol oynamışdı. Çar Rusiyası Özbəkistanı işğal edənə kimi burada dini məktəb və mədrəsələr mühüm əhəmiyyət kəsb etmişdi. Özbəkistanda ilk ibtidai dini məktəblər VIII əsrdə təsis olunmuşdu. Akademik V.V. Bartold göstərirdi ki, İslamın bərqərar olması ilə eyni zamanda müsəlman xalqlarında iki növ tədris ocağı-məktəb (ibtidai) və mədrəsə (ali dini) yaranmışdı ( 2, s. 222, 225). Mədrəsələrdə Buxara, Səmərqənd, Kazan, Ufa, Orenburq və Bağdadda (2, s.223-224) təhsil almış tanınmış din xadimləri dərs deyirdilər. Burada xan və sultanların dəftərxanaları üçün kadr və həmçinin din xadimləri hazırlanırdı.Tədris prosesində ərəb yazısı üstünlük təşkil edirdi. Qızlar üçün xüsusi məktəblər yox idi. Bununla yanaşı Türküstan müəllimlər seminariyasının direktoru N.P.Ostroumov belə hesab edirdi ki, müsəlman məktəblərinin yaxşı cəhətlərindən biri ondan ibarət idi ki, onlar şagirdlərə ailə qanunları və adət-ənənələrini pozmamağı aşılayırdı. Ona görə də nəinki XIX əsrin əvvəllərində, habelə əsrin sonunda da dini məktəblərə axın davam etmişdi.

Özbəkistanda məktəb və mədrəsələr oturaq əhalinin daha çox məskunlaşdığı bölgələrdə təsis edilirdi. Məktəblərdə qiraət kimi çərəkələrin əzbərlənməsinə diqqət yetirilirdi.Qurandan seçilmiş ayrı-ayrı ayə və surələrdən ibarət «Həftyek» («Yeddidə bir»), «Çorkitab» («Dörd kitab»), «Sufi-Allayar», şair Hafizin şerlərindən ibarət «Xoca Hafiz» kitablarının tədrisi məktəbin əsas kursunu təşkil edirdi ( 6, s.58-59). Dini dərslərdən başqa ümumi elmi biliklər haqqında şagirdlərə məlumat verilirdi. Eyni zamanda Nəvai, Füzuli, Mirzə Bedilin əsərlərindən ayrı – ayrı hissələr şagirdlərə öyrədilirdi (1, s.38). 1899-cu il məlumatına əsasən hazırkı Özbəkistanın tərkibində olan Sırdərya, Səmərqənd və Fərqanə vilayətlərində 4632 məktəb var idi (6, s.56).

Mərkəzi Asiya, o cümlədən Özbəkistanda mədrəsələr IX – XIII əsrlərdə yaranmışdı. Türküstan diyarında mədrəsələr şəhərlərdə yerləşirdi. Mədrəsələrin yerləşdiyi əsas mərkəzlər Margilan, Səmərqənd, Əndican və Daşkənd idi ( 3, s.51). Mədrəsələrə məktəbləri qurtaran imkanlı ailələrin uşaqları daxil ola bilirdilər. Burada bəziləri 10 il, başqaları 12-15 və hətta 20 il müddətə təhsilini başa çatdırırdı. Mədrəsələrdə Quran ayələri, müxtəlif dini kitablar, hesab və s. öyrənilirdi.1890-cı ilin məlumatına əsasən Buxara və Səmərqənd mədrəsələrində Şərq klassiklərinin əsərləri, hüquq elmi, fəlsəfə tədris olunurdu. V.V.Bartold qeyd edirdi ki,Buxara və Səmərqənddə olan dini məktəblərdə Qurani - Kərimi dini məqsədlərlə bərabər həmçinin bir elm kimi şagirdlərə öyrədirdilər.

Tarixi ədəbiyyatlarda Mərkəzi Asiyada bəzi rus ziyalılarının mədrəsələrdəki vəziyyətin əleyhinə açıq şəkildə çıxması göstərilirdi. Özbəkistan Elmlər Akademiyasının aka-

demiki T.N.Karı-Niyazov yazır ki, özbək xalqı nail olduğu dünyagörüşü,elmi biliklər, islami dəyərlər üçün məhz mədrəsələrə borcludur.

Özbəkistanda mədrəsələr məktəblərdən fərqli olaraq yerləşdikləri şəhərlərdə memarlıq abidəsi kimi də diqqəti cəlb edirdi. Çar Rusiyası Mərkəzi Asiyanı işğal etdikdən sonra regionun təhsil sistemində apardığı ruslaşdırma siyasətinin tərkib hissəsi kimi « köhnə feodal qaydalarına qarşı mübarizə» adı altında həyata keçirdiyi tədbirlərin bu təhsil ocaqlarından da yan keçməməsinə baxmayaraq özündə təkrarolunmaz memarlıq ornamentlərini əks etdirən mədrəsələrdən bəziləri bu gün də mövcuddur. Bu cəhətdən Səmərqənd və Daşkənd şəhərlərində olan mədrəsələr xüsusilə fərqlənir.

Hər bir tədris müəssisəsinin, o cümlədən məktəb və mədrəsələrin fəaliyyətində bu və ya digər formada çatışmamazlıq və qüsurlar ola bilərdi.Lakin dini məktəblərin «zərərli» olmasını bildirmək və daha çox rus-yerli, rus məktəblərinin açılmasına üstünlük vermək əslində çar Rusiyasının Türküstan diyarında təhsilin ruslaşdırılmasını həyata keçirmək demək idi.

1867-1882-ci illərdə Türküstan general-qubernatoru olmuş K.P.Kaufman (8, s.28) güclü müsəlman idarələrinin yaradılması üçün göstərilən cəhdləri qəbul etməmişdi. Çar hökumətinin din xadimlərinə təsiri isə getdikcə güclənirdi. Müsəlman müftilərinin bəzi hüquqlarını çar hökuməti ləğv edib onları yerli məhkəmə orqanlarına verirdi. Molla və qazıların səlahiyyətləri onlardan alınıb Orenburq müftisinə verilmişdi. Bununla əlaqədar olaraq Daşkənd əhalisi Orenburq general-qubernatoruna ərizə yazaraq öz narazılıqlarını bildirmişdi. Maarif sahəsində həyata keçirilən siyasətlə əlaqədar olaraq K.P.Kaufman bildirmişdi ki, gələcəkdə də dini və siyasi təbliğat mərkəzi kimi fəaliyyət göstərəcək yerli dini məktəblər Rusiya hökumətinin hər hansı bir yardımına arxayın olmamalıdır. K.P.Kaufmana görə onların birbaşa ləğf edilməsi istiqamətində atılmış hər hansı bir düşünülməmiş addım bölgənin qüvvələrini Rusiyaya qarşı qaldıracaqdır. Ona görə də dini məktəblərə qarşı sadəcə olaraq « etinasızlıq » göstərilməlidir (3, s.65-67). Lakin bununla yanaşı Türküstan general-qubernatoru K.P.Kaufman 1865-ci ildə Daşkənddə, 1868-ci ildə Səmərqənddə çar Rusiyasının qoşununa qarşı çıxışların baş verməsinin səbəbini mədrəsələrin antirus fəaliyyəti ilə bağlayırdı.

Mədrəsələrin sayca çox və daha geniş fəaliyyət göstərdiyi Özbəkistanda hətta XIX əsrin sonlarında belə dini məktəblərin sayı artmaqda idi ( 9, s.45). Buxara və Səmərqənd İslam dini təhsilinin mərkəzləri kimi öz əvvəlki şöhrətini qoruyub saxlaya bilmişdi. Buraya Volqaboyu və qazax türkləri də təhsil almağa gəlirdilər (10,s.330). Lakin mədrəsələr panislamizm və fanatizmi təbliğ etməkdə günahlandırılırdı.Bu isə mədrəsələrin fəaliyyətinə məhdudiyyət qoyulmasında bir bəhanə idi. Digər bir tərəfdən isə, Türküstan general-qubernatorluğuna yerli, lakin rus dilində danışıb-yazmağı bacaran savadlı məmurlar lazım idi. Eyni zamanda rus əhalisi arasında maarif işi daha geniş vüsət alırdı. Bu məqsədlə 1870-ci ildə K.P.Kaufman tərəfindən üç nəfərdən – M.İ.Brodovski, A.L.Kun və M.A.Terentyevdən ibarət komissiya yaradıldı ( 2, s.298). Komissiya regionun yerli və rusdilli əhalisi üçün nəzərdə tutulan təhsil müəssisələrinin yaradılması üzrə çəkiləcək xərclərin miqdarını müəyyənləşdirməli, tədris müəssisələrini proqram və dərs vəsaiti, həmçinin yeni yaradılacaq təhsil müəssisələrini nəzərdə tutulan sayda şagird və müəllim heyəti ilə təmin etmək, təlim – tədris prosesinin müddətini dəqiqləşdirmək və sair məsələlərə aid layihə işləyib hazırladı ( 7, s.25-26). Bəzi dəyişikliklər edilməklə layihə 1875-ci ildə təsdiq edilmişdi (2,s.299).1876-cı ildə Türküstan tədris müəssisələri idarəsi yaradıldı (7, s.28). Rus - yerli və rus məktəblərinin açılmasına daha çox diqqət yetirilməsinə başlanıldı. Səmərqənddə 1870-ci ildə rus-yerli məktəbi, Daşkənddə 1866-cı ildə rus, 1873-cü ildə üçillik xalq məktəbi, 1884-cü ildə rus-yerli məktəbləri açıldı (5, s.161, 162).

Hazırki Özbəkistanın ərazisində 1881 – 1914-cü illərdə 160 rus – yerli məktəb fəaliyyət göstərmişdi. Bu məktəblərdə təhsil alan 18 min şagirddən 5 minə yaxını yerli əhalidən olanlar idi (11, s.258). 1903-cü ildə Daşkənddən olan Rəsulxoca Səid Əzimov rus – yerli məktəbləri üçün dərslik yazmışdı (1,s.39).

Çarizm maarif sahəsində müstəmləkə siyasətini həyata keçirmək üçün təkcə rus-yerli, rus məktəbləri yaratmaqla kifayətlənməyərək, bu məktəblərin yanında əhaliyə rus dili öyrədən axşam kursları,bazar günü məktəbləri də açırdı. 1884-cü ildən Türküstan xalq təhsili sisteminə daxil olan yaşlılara rus dili öyrədən axşam kursları yerli büdcədən maliyyələşdirilirdi ( 4, s.499).

1884 -1885-ci təhsil ilinin sonlarında Özbəkistan ərazisindəki 8 peşə məktəbində yerli əhalidən 103 nəfər təhsil alırdı (5,s.164). 1894-cü ildə Daşkənddə rus tacirlərinin uşaqları üçün peşə məktəbləri açılmışdı.Belə məktəblər Səmərqənd və Fərqanə vilayətlərində də təşkil edilmişdi.

1876-cı ildə Daşkənddə qadın və kişi gimnaziyaları açılmışdı. 1879-cu ildə Daşkənddə Türküstan müəllimlər seminariyası təşkil edilmişdi. Burada rus ibtidai məktəbləri üçün müəllimlər hazırlanırdı.1880-ci illərin ortalarından etibarən bu seminariyada rus-yerli məktəblər üçün də müəllim kadrları hazırlı-ğına başlanıldı. Bu həm də geniş əraziyə malik olan Mərkəzi Asiyada ildə 20 nəfərədək müəllim hazırlayan yeganə pedaqoji təhsil müəssisəsi idi ( 5, s.165). Daşkənd müəllimlər seminariyasında 1879 - 1904-cü illərdə təhsil alan 415 nəfərdən yalnız 65 nəfəri yerlilərdən ibarət olmuşdu. Bunlar da bütün tələbələrin 15 faizini təşkil edirdi. Həmin tələbələrin yalnız 11-i özbək idi. Daşkənd müəllimlər seminariyasında qazax, 1884-cü ildən sonra isə özbək dili tədris edilirdi ( 6, s.66).

Hələ XIX əsrin sonunda Əndicanda ilk yeniləşdirilmiş tatar məktəbləri meydana gəlmişdi.Tatar müəllimləri əvvəlcə Fərqanədə tatar əhalisi üçün yeni üsullu məktəb təşkil etmişdilər.Bu məktəbdə özbək bəylərinin uşaqları da təhsil alırdılar. 1893-cü ildə Krımdan Səmərqəndə gələn müsəlman məktəblərinin islahatçısı İsmayıl bəy Qaspiralı yeni üsullu (üsuli-cədid) məktəblərin müəllimlərinə bir sıra məsləhətlər verməklə köməklik göstərmişdi. Demokrat – maarifçi Həmzə Həkimzadə yeni yaratdığı məktəbini təkcə yeni üsullu deyil, « darulaytom » - kasıb və yetimlər üçün məktəb adlandırmışdı. «Üsuli-cədid»in məqsəd və məramı türk xalqlarının birliyi-vahid dil, ədəbiyyat, mənəvi mədəniyyətin təbliği, islam bayrağı altında azadlıq ideyalarının yayılması, maarif və mədəniyyətin inkişafı, cəhalət və fanatizmin tənqidindən ibarət idi.

XX yüzilliyin astanasında ilk yeni üsullu məktəblər Daşkənd, Buxara və s. şəhərlərdə meydana gəlmişdi. Cədidçilərin yeni üsullu məktəblərini milli burjuaziya maliyyələşdirirdi. Çarizm cədidçilərin Türkiyə ilə əlaqə saxlamalarını bəhanə gətirərək bu məktəblərin açılmasını təhlükəli hesab edirdi. 1910-1911-ci tədris ilində Türküstanda 50-dən çox yeni üsullu məktəb bağlanılmışdı.

Daşkənddə kənd təsərrüfatı hidrotexnika (1902-ci il), Səmərqənddə isə bağçılıq və şərabçılıq (1904-cü il) məktəbləri açılmışdı. 1904-cü ildə Daşkənddə dəmiryol texniki və 1913-cü ildə isə ticarət məktəbləri fəaliyyətə başlamışdı.1908-ci ildə xüsusi qadın peşə məktəbi təsis edilmişdi.

Əlbəttə, müxtəlif tipli məktəblərin açılması xalqın sosial-iqtisadi və mədəni inkişafında mühüm rol oynayırdı.Lakin ümumilikdə götürdükdə, bu, heç də Özbəkistanın təhsil problemlərinin həll edilməsi demək deyildi. 1912-ci ildə Fərqanə vilayətində təhsil alanların sayı 0,5 faiz, Səmərqənddə 0,9, Sırdəryada isə 2 faiz təşkil edirdi (6, s. 60). Ümumiyyətlə, 1917-ci ilin əvvəlində özbəklər arasında savadlıların sayı 2 faizə çatırdı ( 7, s.7). Maarifə ayrılan vəsait isə onun inkişafını təmin edə bilmirdi. Çar hökuməti Türküstan diyarında xalq təhsilinə 1915-ci il üçün 1 milyon manatdan bir qədər çox vəsait

ayırmışdı ki, bu da 44, 5 milyon manatlıq ümumi büdcənin 2,4 faizini təşkil edirdi (6, s.67-68).

Beləliklə, XIX – XX əsrin əvvəllərində Özbəkistanda maarifin inkişafı dövrün qanunauyğunluqlarına əsaslanmışdı. XIX əsrdə dini məktəb və mədrəsələr mühüm əhəmiyyət kəsb etsə də, XX əsrin əvvəllərində dünyəvi təhsil sisteminin üstünlük təşkil etməsi özünü açıq şəkildə büruzə verməyə başladı. Çar Rusiyası Özbəkistanı işğal etdikdən sonra maarif sahəsində həyata keçirdiyi tədbirlər imperiyanın maraqlarına – maarif sistemində ruslaşdırma siyasətinə gətirib çıxartdı. Eyni zamanda dövlətə sədaqətli yerli məmurların hazırlanmasına da diqqət yetirilirdi. Lakin bununla bərabər XIX əsrin sonu – XX əsrin əvvəllərində Özbəkistan xalqının dünyəvi təhsil sisteminə keçməsi irəliyə doğru atılmış bir addım hesab edilməlidir. Amma bir fakt da danılmazdır ki, bu dövrdə xalq maarifinə çəkilən xərclərə, şagirdlərin və məktəblərin sayına görə Rusiya Avropa ölkələri arasında axırıncı yerlərdən birini tuturdu. Rusiyanın özündə də maarif işindəki çatışmazlıqlar bu sahədə xeyli çətinlik yaradırdı. Belə ki, hələ XIX əsrin 60-cı illərinin əvvəllərində Rusiyada əhalinin ümumi sayına görə savadlılar 6 faizdən çox deyildi. Yalnız 1861-ci il islahatından sonra zemstvo, xalq məktəbləri açılmış, orta təhsil ocaqlarının ( gimnaziya, realnı məktəblərin) sayı artmışdı.

Bundan əlavə, Rusiyada hələ 1858-ci ildən qapalı tipli tək – tək qadın gimnaziyaları haqqındakı Əsasnaməyə görə qızların orta təhsil almasına icazə verilirdi. Əlbəttə, Rusiyada maarif sistemində mövcud olan gerilik istər – istəməz Özbəkistanda da maarif sahəsinə mənfi təsir göstərirdi.

### *ƏDƏBİYYAT*

1.Акрамов В.А. Социально- экономическая и культурная жизнь города Коканда (вторая половина XIX- начало XX вв.). Автореферат диссертации на соискание ученой степени кандидата исторических наук. Ташкент, 1973

2.Бартольд В.В. История культурной жизни Туркестана.Соч.т. II. Ч.I.М.,1963

3.Бендриков К.Е. Очерки по истории народного образования в Туркестане (1865-1924 гг.). М.,1960

4.История Киргизии. Т.1. Фрунзе, 1963

5.История Узбекской ССР. Т.1.Кн.2.Ташкент,1956

6.Кары-Ниязов Т.Н.Очерки истории культуры Советского Узбекистана. М.,1955

7.Кочаров В.Т.Из истории народного образования в Туркестанском крае. Ташкент,1959

8. Кочаров В.Т. Из истории организации и развития народного образования в дореволюционном Узбекистане ( 1865 – 1917 гг.). Ташкент, 1966

9.Mehdiyeva N. C. XIX əsrdə Türküstan xalqlarının mədəniyyəti. Birinci Türkoloji qurultay – 80. Bakı Universiteinin Xəbərləri. Humanitar elmlər seriyası. 2006, № 2

10. История Казахской ССР с древнейших времен до наших дней. Алма – Ата, 1943

11.Узбекская Советская Социалистическая Республика. Энциклопедия в одном томе. Ташкент, 1981

**НИСБЕТ МЕХТИЕВА**

## МЕКТЕБЫ И МЕДРЕСЕ, СВЕТСКОЕ ОБРАЗОВАНИЕ В УЗБЕКИСТАНЕ (XIX – начала XX вв.)

Народам Узбекистана, носителям древнейшей и самобытной культуры, удалось сохранить и развить свое культурное наследие. На начальном этапе развития культуры народов особую роль сыграло просвещение. Долгие годы развитие просвещения в Узбекистане было связано с исламской религией.

После завершения завоевания Узбекистана Россией был учрежден ряд новых учебных заведений. Зарождение капиталистических отношений в начале XX века оказало существенное влияние и на уровень развития просвещения народов Узбекистана. В этот период, наря-

ду с религиозными просветительскими учреждениями, появились и существовали также русско-туземные, русские, новометодные школы, гимназии, учительские семинарии, реальные училища и др. учебные заведения.

**NISBET MEHDIYEVA**

**MEKTEB AND MEDRESE, THE SECULAR EDUCATION IN UZBEKISTAN**
**( XIX – the beginning of XX th c.)**

The Uzbekistan nations owing the ancient and original culture could preserve and develop their cultural legacy. The education had played the special role in earliest period of the culture's development of nations. For a long time the development of the education in Uzbekistan has been connected with the Islamic religion.

A couple of new educational institutions were established after the completion of Uzbekistan's occupation by Russia. The origin of capitalist collaborations of the beginning of XX th century also exerted essential influence on the level of education's development of Uzbekistan nations. In this period also appeared and existed Russian-native, Russian, newmethodic schools, gymnasiums, teachers' seminaries, real secondary schools and other educational ones side by side the religious educational institutions.

***Rəyçilər: t.e.n.S.F.Ruintən, t.e.d.R.C.Süleymanov.***

***BDU-nun Türk və Qafqaz xalqları tarixi kafedrasının 14 sentyabr 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №01).***